UOT 94

ELGÜN QƏHRƏMANOV
Bakı Dövlət Universiteti, Erməni Araşdırmaları və Təlim Mərkəzi,
tarix üzrə fəlsəfə doktoru
elgun041@gmail.com

GÜNAY AŞUROVA
Bakı Dövlət Universiteti,
Dünya Azərbaycanlıları: Tarixi-demoqrafiya ETL-nin elmi işçisi, dissertant
asurovagunai@gmail.com

AVROPANIN TƏHLÜKƏSİZLİYİNDƏ TÜRKİYƏNİN YENİ ROLU

DOI: https://doi.org/10.36719/2708-065X/110/145-150

Soyuq müharibə dövründə Avropa təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan Türkiyə uzun müddət NATO-nun cənub cinahındakı mövqeyini qoruyub saxladı. Sosializm təhlükəsinə qarşı mübarizədə ideoloji vizyonu və hərbi güdrəti sayəsində Türkiyə NATO üçün strateji əhəmiyyətli bir dövlət hesab olunurdu. İkinci Dünya Müharibəsindən sonra Avropa təhlükəsizliyinin təşkilində rol oynayan ABŞ Avropa ölkələrinin iqtisadi inkişafı üçün şərait yaratdı. Əslində, ABŞ uzun müddət Avropa üçün "təhlükəsizlik çətiri" kimi çıxış etdi. Bu, Avropa ölkələrini rifah dövlətləri yaratmağa, hərbi xərcləri minimuma endirməyə və sosial xərcləri artırmağa səbəb oldu. ABŞ-ın maliyyə yardımı ilə yenidən qurulan Avropa müdafiə xərclərini azaldıb, infrastrukturunu inkişaf etdirib və sosial-iqtisadi cəmiyyət qurmağa çalışıb. Hazırda Avropa ölkələrini yenidən müdafiələrini düşünməyə məcbur edən hadisə Rusiyanın aqressiv və imperialist istəklərinin yenidən canlanması oldu.

Açar sözlər: Avropa İttifaqı, Rusiya-Ukrayna müharibəsi, təhlükəsizlik məsələləri, NATO, Türkiyə Respublikası.

Giriş. Soyuq müharibə dövründə Avropanın təhlükəsizliyində mühüm rol oynayan Türkiyə NATO-nun cənub qanadında mövqeyini uzun müddət qoruyub saxlamışdır. Sosializm təhlükəsinə qarşı Türkiyə həm ideoloji baxışı, həm də hərbi gücü ilə NATO üçün vacib strateji dövlət hesab edilirdi. II Dünya müharibəsindən sonra Avropa təhlükəsizliyinin təşkilində rol oynayan ABŞ, Avropa ölkələrinin iqtisadi olaraq inkişafına şərait yaratmışdır. ABŞ faktiki olaraq uzun müddət Avropa üçün "təhlükəsizlik çətiri " rolu oynamışdır. Bu Avropa ölkələrinin hərbi xərclərini minimuma endirərək, sosial xərcləri artıraraq rifah dövlətləri qura bilməsinə gətirib çıxartmışdır. ABŞ maliyyə yardımı ilə yenidən qurulan Avropa öz infrastrukturun qurulmasında müdafiə xərclərini azaltmış və sosial-iqtisadi cəmiyyət qurmağı hədəfləmişdir. Avropa ölkələrini yenidən öz müdafiəsi haqqında düşünməsini sürətləndirən hadisə, Rusiyanın işğalçı və imperialist istəklərinin yenidən alovlanması ilə bağlı oldu. Xüsusilə, Tramp Avropa təhlükəsizliyinin təmin edilməsi üçün ABŞ-ın artıq xərcləri azaltdığını və Avropa öz müdafiə xərclərini özü təmin etməsini bildirmişdir. Əhəmiyyətli iqtisadi gücünə baxmayaraq, İkinci Dünya müharibəsindən sonra müstəqil hərbi güc inkişaf etdirməyən bacarıqlı liderlər yetişdirə bilməyən Avropa yenə də əsas təhlükə olaraq Rusiyanı qarşısında görməkdədir.

Rusiyanın Ukraynaya tammiqyaslı müdaxiləsi Moskva ilə Avropa arasında uzunmüddətli qarşıdurmanın başlanğıcı oldu. Bu hadisə Avropa təhlükəsizliyinin parametrlərini əsaslı şəkildə dəyişir. Donald Trampın yenidən prezident seçilməsi və onun Ukraynadakı müharibəni tez bir zamanda dayandırmaq və Avropa müttəfiqlərinə Ukrayna da daxil olmaqla öz təhlükəsizliyi üçün daha çox məsuliyyət daşımaları üçün təzyiq göstərmək istəyi, Avropanı yenidən öz müdafiəsi ilə bağlı qayğıları artırmış oldu. Yaranmış bu təhlükəsizlik mənzərəsində Avropa Ukraynanın, Baltikyanı ölkələrin və Qara dəniz regionunun uzunmüddətli təhlükəsizliyinin təmin edilməsi və Avropa İttifaqının müdafiə və hərbi potensialının gücləndirilməsi kimi ikili problemlə üz-üzədir. Türkiyə hər iki kontekstdə rolu siyasi baxımdan mübahisəli olsa da, strateji əhəmiyyətli mövqeyə malikdir. Ankaranın eyni zamanda Aİ-yə üzv dövlətlər üçün tərəfdaş, rəqib və hətta siyasi təhlükə olduğunu nəzərə alsaq, Aİ və Türkiyə

arasında hansı uyğunlaşma ola bilər? Avropa İttifaqı öz növbəsində Türkiyəni dəyişən Avropa təhlükəsizlik arxitekturasına inteqrasiyası üçün mərhələli, praqmatik və maraqlara əsaslanan yanaşma tətbiq etməlidir. Türkiyəni Avropada strateji və bacarıqlı aktor kimi rolu güclənməkdədir. Avropa İttifaqı Ankara ilə müdafiə sahəsində əməkdaşlığın genişləndirmək istəkləri günümüzdə daha da aktuallaşmaqdadır. Lakin Türkiyənin Aİ-yə daxil olma prosesinin dalana dirənməsi ilə, müdafiə sahəsində əməkdaşlığı iki ayrı məsələ olduğunu tərəflər anlamalıdır [2, 119].

2022-ci fevralında Rusiyanın Ukraynaya hücumu başlayanda, Türkiyə təhlükəsizlik və iqtisadi maraqlarını qorumaq üçün Qərb müttəfiqləri ilə Rusiya arasında balanslaşdırma siyasətini həyata keçirir. 2014-cü ildə Rusiyanın Krımı ilhaq etməsindən bəri, Türkiyə Ukraynanın ərazi bütövlüyünə olan dəstəyini dəfələrlə bildirmişdi və Ukrayna ilə birgə müdafiə qurğularının istehsalı ilə Kiyevə öz açıq dəstəyini göstərmişdi. Bununla belə Türkiyənin imzaladığı NATO-nun 2025-ci ilin iyun ayında Haaqa zirvə Bəyannaməsinə "Rusiyanın Avro-Atlantik təhlükəsizliyə uzunmüddətli təhdid" istinad edilməsinə baxmayaraq, Türkiyə Rusiyanı əsas təhlükə hesab etmir [4]. Üstəlik, Moskva kimi Türkiyə rəhbərliyi də Ukraynadakı müharibəni Soyuq müharibədən sonra yaranmış nizamı yenidən qiymətləndirmək üçün fürsət kimi görür. Bundan əlavə, Türkiyə Qərbin Rusiyaya qarşı sanksiyalarında iştirak etməyib (O, prinsip etibarı ilə yalnız BMT sanksiyalarına qoşulduğunu iddia edir). Bütün bu strateji qeyri-müəyyənliklər arasında, Rusiyanın Ukraynaya təcavüzündən sonra Türkiyənin Qərb müttəfiqlərinə yaxınlaşması ilə bağlı ilkin gözləntilərin özünün doğrultmaması təəccüblü deyil.

Hazırkı Tramp administrasiyasının Ukraynadakı müharibə ilə bağlı asimmetrik mövqeyi, Ankara və Brüssel arasında genişlənmiş əməkdaşlıq üçün yeni impuls yaradıb. 2025-ci ilin mart ayında Böyük Britaniya və Fransanın rəhbərliyi ilə yaradılmış və Ukraynaya açıq şəkildə dəstəyi bildirən "Coalition of the willing" (istəklilər koalisiyası) iclaslarında Türkiyə fəal iştirak etmişdi. Hətta o, müharibədən sonra Ukraynada potensial atəşkəsə nəzarət etməyə hazır olduğunu bildirmişdi [5]. Ankara, həmçinin Qara dənizdə çoxmillətli sülhməramlıların yerləşdirmənin məsuliyyətini öz üzərinə götürməyi hazır olduğunu bildirmişdir. Bu yaxınlarda Türkiyə İstanbulda Rusiya və Ukrayna nümayəndə heyətləri arasında danışıqlara ev sahibliyi etdi, lakin atəşkəs razılaşması istiqamətində konkret irəliləyiş əldə olunmadı.

NATO-nun ikinci ən böyük ordusu və Qara dənizdə ən uzun sahil xəttinə malik dövlət kimi Türkiyə mühüm strateji rol oynayır. Montre konvensiyasında nəzərdə tutulduğu kimi, müharibə zamanı, hərbi gəmilərin Qara dənizə çıxışına nəzarət onun əhəmiyyətini daha da artırır. Türkiyənin böyüyən müdafiə sənayesi və xüsusən də döyüş sursatı və pilotsuz uçuş aparatlarında (PUA) rəqabət üstünlüyü, ölkənin Aİ-nin müdafiə müzakirələrindəki əhəmiyyətini artırır. 2010-cu ildən bəri Türkiyənin müdafiə və aerokosmik ixracatı da durmadan artmaqdadır. 2024-cü ildə bu əvvəlki illərlə müqayisədə 29% artımla ümumillikdə, 7,15 milyard ABŞ dollarına çatıb. Əsasən PUA istehsalı ilə tanınsa da, Türkiyə müdafiə sənayesi quru, dəniz və hava hücumundan müdafiə sahələrində də uğur qazanıb. Türkiyə rəhbərliyi iqtisadi çətinliklərə və texnoloji asılılığa baxmayaraq, müdafiə investisiyalarına sadiq qalır. Aİ-nin müxtəlif üzv dövlətləri və Ukrayna ilə müdafiə əlaqələri intensivləşməkdə davam edir [4].

Tramp administrasiyasının geosiyasi imperativlərinə görə, Türkiyə rəhbərliyi özünü əlverişli mövqedə hesab edir. Onun iştirakı olmadan Avropa təhlükəsizliyinin qeyri-mümkün olduğuna əmin olan Ankara, nəinki Aİ-nin müdafiə satınalmalarında fəal işirak etmək istəyir, həm də müdafiə sahəsində əməkdaşlıqdan Aİ-yə üzvlük üçün təsir rıçaqları kimi istifadə etməyə çalışır. Türkiyənin strateji və geosiyasi əhəmiyyəti ölkənin daxili siyasi qarşıdurmalarını kompensasiya edir. Avropa Parlamenti öz normativ ənənəsinə sadiq qalaraq Türkiyəni həmfikir tərəfdaş kimi qəbul etməkdən çəkinir, daha doğrusu, Ankaranı strateji tərəfdaş, NATO müttəfiqi və təhlükəsizlik, ticarət, iqtisadiyyat və miqrasiya sahələrində Aİ ilə sıx lakin mürəkkəb əlaqələri olan ölkə kimi görür. Aİ isə öz növbəsində Ankaranın öz sərhədlərindən kənarda təsir etmək üçün strateji istəklərində ehtiyatlanır, lakin Türkiyə ilə əməkdaşlığın qaçınılmaz olduğunu etiraf edir. Brüsseldə müdafiə məsələlərinə görə Türkiyəyə həddən artıq güvənməklə narahatlıqları əhəmiyyətsiz deyil. Eyni zamanda Aİ Türkiyəni təhlükəsizlik üzrə tərəfdaş kimi cəlb etmək üçün hələ də tutarlı strateji yanaşma ifadə etməyib [6].

Avropa İttifaqı üzv dövlətləri arasında Türkiyəyə baxışında olan fərqlər. Belə bir yanaşmanın yaradılması Aİ-yə üzv dövlətlər arasında Türkiyə ilə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığa dair müxtəlif yanaşmalar səbəbindən çətinləşir. Burada rol oynayan amillər müxtəlif prioritetlərindən

və Avropanın strateji muxtariyyəti ilə bağlı fikir ayrılıqlarından tutmuş, rəqabət aparan hərbi sənaye maraqları kimi amilləri göstərmək mümkündür. Ankaranın geosiyasi ambisiyaları və xarici siyasəti ilə bağlı təsəvvürləri, üzv dövlətlərin Türkiyə ilə ikitərəfli iqtisadi əlaqələri və onların türk diaspor icmalarının böyüklüyü və nüfuzu kimi digər amillərlə bağlıdır [1, 31]. Dəyişən Avropa təhlükəsizlik mühitində Aİ-yə üzv dövlətlərin Türkiyə ilə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığı fərqli formada inkişaf etmişdir. Türkiyə ilə nisbətən əməkdaşlıq və dostluq münasibətləri olanlar- Polşa, İspaniya və İtaliya; Daha ehtiyatlı və ya təmkinli mövqe tutanlar- İsveç, Finlandiya və Almaniya ; Türkiyə ilə əlaqə qurmaqda maraqlı olmayan ölkələr-Fransa və Yunanıstan.

Polşa, İspaniya və İtaliyanın Türkiyə ilə ikitərəfli münasibətləri, hər şeydən əvvəl təhlükəsizlik imperativləri və hərbi-sənaye maraqları ilə formalaşır. Varşava Türkiyə ilə əlaqələrin dərinləşdirilməsini bu günki, qeyri-sabit təhlükəsizlik mühitində NATO-nun şərq cinahını gücləndirməyə yönəlmiş strateji diqqətinə uyğun hesab edir. 2021-ci ildə Polşa Türkiyənin Bayraktar TB2 pilotsuz təyyarələrini alan ilk Aİ və NATO ölkəsi oldu. Eyni zamanda Türkiyənin ASELSAN müdafiə şirkəti Polşanın AM2 Kutno firmasının kəşfiyyat və müşahidə sistemləri ilə təchiz edir. Hər şeydən əvvəl, polşalı qərar qəbul edənlər Türkiyə ilə müdafiə sahəsində əməkdaşlığa münasibətlərin əsası kimi baxırlar [2, 116]. Bu fikirə görə Ankara Rusiyanı cilovlamaq üçün həlledici tərəfdaş kimi "Üç Dəniz təşəbbüsünə" qoşuldu. Təşəbbüs 2015-ci ildə Xorvatiya və Polşa tərəfindən Baltik, Adriatik və Qara dənizlər ətrafında yerləşən 12 Aİ üzv dövləti arasında nəqliyyat, enerji və rəqəmsal infrastruktur əlaqələrini gücləndirmək məqsədilə irəli sürülüb. Polşa kimi İspaniya da Türkiyə ilə əməkdaşlığı NATO-nun institutsional çərçivəsində həyata keçirir. Lakin Varşavadan fərqli olaraq, Madridin əsas marağı NATO-nun cənub cinahındadır. Mərkəzi, Şərq və Şimal Avropa müttəfiqlərinin şərq cinah yönümlü prirotetlərini tarazlaşdırmaq üçün Türkiyənin iştirakı strateji baxımından mühüm hesab olunur [4]. İspaniya nöqteyi-nəzərindən Türkiyə Şərqi Aralıq dənizinin təhlükəsizliyində mühüm rol oynayır, eyni zamanda Ankaranın qərbi Aralıq dənizində, xüsusən Mərakeş və Əlcəzairlə bağlı nisbətən məhdud fəaliyyəti milli həssaslıqlardan qaynaqlanan ikitərəfli gərginlik riskini azaldır. İki ölkənin HƏMAS-a fərqli yanaşmalarına baxmayaraq Madridin Netanyahu hökumətinin Qəza siyasətini tənqid etməsi Ankarada müsbət qarşılanır. İspaniya da Türkiyə ilə müdafiə sahəsində əməkdaşlıq edir. O , Türkiyənin ən yaxşı müdafiə təchizatçılarından və ortaq istehsal tərəfdaşlarından birinə çevrilib. 2024-cü ilin dekabrında İspaniya Hərbi Hava Qüvvələr üçün "Hürfet" qabaqcıl təlim təyyarəsini birgə inkişaf etdirmək üçün anlaşma memorandumu imzaladıqdan sonra, Madrid bu yaxınlarda 1,375 milyard avroluq investisiya elan etdi. Bundan əlavə, Türkiyənin pilotsuz uçuş apara bilən amfibiya hücum gəmisi olan TGG Anadolu, İspaniyanın "Juan Carlos I" təyyarə gəmisinin dizaynına əsaslanırdı. Madridin Ankaraya "müdafiə ixracını artırmaq və daha dominant Avropa şirkətlərinin və üzv dövlətlərin təsirini tarazlaşdırmaq" məqsədilə xarici tərəfdaşlıqların genişləndirilməsi üzrə daha geniş strategiyasının bir hissəsidir. İspaniya kimi İtaliya da Ankaranı mühüm müdafiə tərəfdaşı kimi görür. İtaliyanın Türkiyə ilə müdafiə sahəsində əməkdaşlığı onun sənaye məqsədləri ilə güclü şəkildə motivasiya edilir. 2025-ci ilin mart ayında İtaliyanın Leonardo şirkəti və Türkiyənin Baykar Texnologiya şirkəti Avropanın nisbətən zəif olaraq qaldığı bir sektor olan PUA istehsalı üçün birgə müəssisə yaratmaq üçün Anlaşma Memorandumu imzaladılar. Roma müdafiə sektorundan başqa Ankaranı enerji təhlükəsizliyi, miqrasiya axınlarının idarə edilməsi və Afrikada təhlükəsizliyin təmin edilməsində potensial tərəfdaş kimi görür. Amma eyni zamanda iki ölkə Liviya və Aralıq dənizinin şərqində nüfuz uğrunda yarışır [6].

İkinci qrup Aİ-yə üzv dövlətlər Türkiyə ilə münasibətlərinə daha ehtiyatlı, lakin nisbətən açıq yanaşma nümayiş etdirirlər. İsveç və Finlandiyanın NATO-ya daxil olma təcrübələri, xüsusilə də bu ölkələrin Türkiyə ilə müdafiə sahəsində əməkdaşlıq haqqında təsəvvürlərini böyük ölçüdə formalaşdırıb. Onlar Ankaranı gözlənilməz hesab etsələr də, coğrafi mövqeyinə və hərbi imkanlarına görə onun NATO daxilində strateji əhəmiyyətini dərk edirlər. Lakin bu dövlətlərin hələ də Türkiyəyə olan baxışlarında qeyri-müəyyənlik münasibətlərə də təsirsiz ötüşmür. Almaniyada da oxşar baxış var. Bununla belə onun Türkiyə ilə münasibətləri hər şeydən əvvəl daha dərin diplomatik iqtisadi və ictimai əlaqələrlə səciyyələnir. Ən böyük türk diasporuna malik Aİ üzvü olan Almaniyanın Türkiyə ilə mürəkkəb münasibətləri var. Son illərdə Berlinin Ankara ilə bağlı siyasətində nəzərəçarpacaq dərəcədə yavaş və ehtiyatlı da olsa dəyişiklik müşahidə olunur. Almaniya Türkiyəyə getdikcə daha çox praqmatik

prizmadan baxır və bu üç əsas amil əsas götürülür: Rusiyanın Ukraynaya müdaxiləsi nəticəsində yaranan və Tramp administrasiyasının Avropa təhlükəsizliyi ilə bağlı qeyri-sabit mövqeyi ilə gücləndirilən geosiyasi vəziyyət; Prezident Ərdoğanın və onun hakim partiyasının yenidən seçilməsi (2023-cü il): Türkiyənin hərbi və strateji əhəmiyyəti [4].

Almaniya bu yaxınlarda Türkiyə Hərbi Dəniz Qüvvələri üçün silah ixracını təsdiqləməsi bu inkişaf edən vəziyyətlə əlaqədardır. Bu addım Türkiyənin 2019-cu ildə Suriyanın şimalında hərbi əməliyyatlardan sonra Almaniya və digər Aİ-yə üzv ölkələr tərəfindən ilkin olaraq tətbiq edilən embarqonun ləğvindən sonra atılıb. Üstəlik Berlin hökuməti bu yaxınlarda "Eurofighter" təyyarələrinin Türkiyəyə çatdırılması ilə bağlı vetosunu geri götürüb. Bu siyasi dəyişikliyin üç əsas motivi var: Qara dənizdə Rusiyanın təsirini saxlamaq, Türkiyənin Qərbə yaxın olması və Türkiyə ilə müdafiə sahəsində əməkdaşlığın tam pozulmasının qarşısının alınması idi.

Üçüncü qrup ölkələr Fransa və Yunanıstanın da Türkiyəyə siyasi etimadı aşağıdır. Paris Ankaraya getdikcə daha çox strateji rəqib kimi baxır. Afinanın isə Türkiyə ilə bağlı təhdid anlayışı daha yüksəkdir. Son ildə Fransa və Türkiyə arasında çoxsaylı gərginliklər, o cümlədən Suriya, Aralıq dənizinin şərqi, Türkiyənin diaspor siyasəti və erməni məsələsi səbəblərindən iki ölkə arasında əlaqələr durmadan korlanıb [3, 39]. İkitərəfli münasibətlər dialoqun yeni mərhələsinə qədəm qoysa da-Avropa təhlükəsizlik arxitekturasının yenidən təşkil səyləri və Yaxın Şərqdə dəyişən regional dinamiklər fonunda Paris və Ankara arasında yaxınlaşma, təhlükəsizlik və müdafiə əməkdaşlığına dair mümkün şəraiti yarada bilərdi. Fransa ilə Türkiyə arasındakı strateji rəqabət və Fransanın bu rəqabətə dair təsəvvürləri ilə fərqlidir. Paris Ankaranın Moskva ilə Qərb müttəfiqləri arasında balanslaşdırma aktı və Rusiyadan S-400 hava hücumundan müdafiə sistemi alması səbəbindən Ankaranı etibarsız və ikitərəfli hesab edir. Eyni zamanda Fransada sabitliyi pozan və qütbləşdirən amil kimi gördüyü islamın dirçəlişinin türk müsəlman təşkilatları tərəfindən idarə olunduğuna inanır. Üstəlik Fransa və Türkiyənin rəqabət aparan geosiyasi ambisiyaları var. Hər ikisinin Afrika və Yaxın Şərq ölkələri ilə təhlükəsizlik və siyasi əlaqələri inkişaf etdirmək və iqtisadi fayda əldə etmək kimi uzunmüddətli perspektivləri var. Fransanın Türkiyə ilə təhlükəsizlik və müdafiə əməkdaşlığına dair təsəvvürlərini formalaşdıran amillərdən biri Parisin Avropanın strateji muxtariyyətini vurğulanması və bununla əlaqədar olaraq Avropa sənayesində üstünlüyü ilə bağlıdır. Fransanın 2024-cü ildə Çexiyanın üçüncü ölkələrdən döyüş sursatı almaq təşəbbüsünə ilkin etirazı bu mövqeyi əks etdirir. Həmin ildə Fransa, Kipr Respublikası və Yunanıstanla birlikdə, Türkiyənin Ukraynaya PUA və artilleriya mərmilərinin tədarükünün maliyyələşdirilməsinə mane oldu. Yunanıstan da öz növbəsində Türkiyə ilə müdafiə sahəsində əməkdaşlıq etməkdə maraqlı olmayan üzv dövlətdir. Afina və Ankara bir-birilərinə tarixi düşmənçiliyi davam etməkdədir [5]. Egey dənizindəki adaların statusu, hava məkanı ilə bağlı problemlər, həm də Egey və Aralıq dənizindəki dəniz sərhədləri ilə bağlı həll olunmamış mübahisələr hələ də qalmaqdadır. Bundan başqa, Ankaranın Yunanıstana Egey adalarını hərbiləşdirdiyi iddiası ilə bağlı fikirləri münasibətləri gərgin saxlayan amillərdəndir. 1995-ci ildə Türkiyə parlamenti Yunanıstanın Egey dənizindəki ərazi sularını altı dəniz milindən kənara birtərəfli şəkildə genişləndirməsi halında, hökumətə casus belli (müharibəyə səbəb) elan etmək üçün yaşıl işıq yandırdı. Bu səbəbdən Afina tələb edir ki, Ankaranın Aİ-nin müdafiə proqramlarında iştirakı Türkiyənin müharibə təhlükəsini aradan qaldırması şərti ilə olmalıdır. 2021-ci ildə 1970-ci illərdən bəri bölgədə ən uzun hərbi qarşıdurmadan sonra Afina və Ankara kəşfiyyat danışıqlarını bərpa etdi [2, 120]. Keçmişdə ABŞ Afina ilə Ankara arasında gərginliyin yumuşaldılmasında həlledici rol oynasa da, son illərdə Vaşinqton və Ankara arasında artan çəkişmələr fonunda Vaşinqtonun bu rolu oynaya bilməsini şübhə altına alır. Beləliklə, NATO-nun Afina ilə Ankara arasında münaqişənin aradan qaldırılması üçün platforma kimi əhəmiyyəti irəlidə çox mühüm olacaq. Soyuq müharibə bitdikdən sonra Türkiyənin Qara dənizdəki siyasəti Moskva ilə birbaşa qarşıdurmadan qaçaraq, Rusiyaya qarşı güc balansını qorumaq olmuşdu. Nə güclü, nə də zəif Rusiya Ankaranın maraqlarına uyğun deyil. Rusiyanın Şimali Afrika, Qafqaz və Yaxın Şərqdəki mövqelərinin zəifləməsində əsas rol oynayan Türkiyə, indi geosiyasi cəhətdən güclənmə ehtimalı olan Rusiya ilə üz-üzədir. Belə bir senari nə Aİ-nin, nə də Ukraynanın maraqlarına uyğun deyil. Kiyev öz növbəsində Türkiyəni Qara dəniz regionunun təhlükəsizliyinin təmin edilməsində və sabitləşdirilməsində əsas oyunçu kimi görür. Trampın NATO və Vaşinqtonun Avropa və Ukrayna üçün təhlükəsizlik zəmanətlərini şübhə altına almaq siyasəti, Ankara tərəfindən həm fürsət, həm də risk kimi qiymətləndirilir. Yuxarıda qeyd edildiyi

kimi, Türkiyə rəhbərliyi qəti şəkildə inanır ki, Türkiyənin Avropa təhlükəsizliyinə cəlb olunması seçim deyil, zərurətdir. Ancaq Ankara təkcə iştirak etmək istəmir, həm də Avropa təhlükəsizliyinin gələcəyini fəal şəkildə formalaşdırmaq istəyir. NATO Türkiyənin təhlükəsizlik kimliyində mərkəzi rol oynayır. NATO-ya üzvlük Türkiyəyə Rusiya və Qərb müttəfiqləri arasında balanslaşdırma hərəkətini həyata keçirməyə imkan yaradır. Beləliklə, Ankara təkcə Avropanın deyil, həm də özünün təhlükəsizliyi üçün əsas çərçivə rolunu oynamağa davam edən NATO-da yüksək paya malikdir [4]. 2022-ci ilin iyun ayında Türkiyə NATO-nun çox yüksək hazırlıqlı birgə fəaliyyət Qüvvəsinin komandanlığını öz üzərinə götürdü. 2024-cü ilin yanvarında Ruminya və Bolqarıstanla Qara dənizində üzən minaların təmizlənməsi üçün müqavilə imzalandı. Bundan əlavə, Türkiyə Qara dənizində gecə-gündüz hava və dəniz kəşfiyyatı missiyaları həyata keçirir və bütün vəziyyətlə bağlı məlumatların 67% qədərini NATO və Ukraynaya təqdim edir [5]. Tramp Vaşinqtonun Avropa təhlükəsizliyinə sadiqliyi, Yaxın Şərqə (Qəzza və İran) müdaxiləçi yanaşması və Rusiyanın potensial güclənməsi ilə bağlı qeyri-müəyyənliyi səbəbindən Ankara indi qonşuluğunda iki revanşist böyük güclə üz-üzədir. Çox güman ki, bu vəziyyətdə və təhdid qavrayışlarının artması ilə Türkiyə bu günkü qeyri-müəyyən və alovlu beynəlxalq mühitdə Avropaya sabitləşdirici qüvvə və proqnozlaşdırılan bilən bir mənbə kimi baxır.

Nəticə. Türkiyə və Aİ-nin, Avropanın müdafiə və təhlükəsizlik gələcəyinin yenidən qurulması fonunda yenidən ortaq maraqlar zərurətinin kəsişməsində dayanıblar. Avropanın Türkiyəni müdafiə və təhlükəsizlik təşəbbüslərinə, proqramlarına və mexanizmlərinə inteqrasiya etmək üçün diqqət yetirməli məqamlar var. Avropa Türkiyənin strateji təhlükəsizlik aktoru kimi rolunu gücləndirmək üçün, Ankara ilə iqtisadi, təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı tədricən genişləndirməlidir. Bu məqsədlə Avropa Şurası, Avropa Komissiyası ilə birlikdə bütün üzv dövlətlərin Türkiyəyə qarşı rəsmi və qeyri-rəsmi silah embarqolarını aradan qaldırmasını təmin etməklə, Türkiyə ilə əsaslı müdafiə əlaqəsi üçün lazımi şərait yaratmalıdır. Avropa İttifaqı Türkiyə ilə müdafiə və təhlükəsizlik sahəsində qurulacaq əməkdaşlığa, Türkiyənin Aİ-yə daxil olması prosesindən ayrı bir məsələ kimi baxmaq istəyir. Türkiyə ilə birgə istehsal edilən silahların Aİ-nin təhlükəsizlik maraqlarını və normlarını pozmamasını təmin etmək üçün silah ixracı idarəçiliyinə ciddi şəkildə nəzarət etməyə çalışır. Xüsusilə bu o deməkdir ki, Aİ-yə və NATO-ya daxil olmayan dövlətlərə silah satışı bütün istehsal tərəfdaşlarının təsdiqini tələb edir. Bu kontekstdə Aİ Türkiyə ilə 2018-ci ilin noyabr ayından bu yana çağrılmayan yüksək səviyyəli siyasi dialoq görüşlərini yenidən başlamalıdır.

ƏDƏBİYYAT

1. Ali Ayata, Elif Sütcü. Avrupada bir güvenlikleştirme konusu olarak göç, Ankara-İksad publications-2022, 96 s.
2. Serden Onur Karaca. Avrupa Birliğinin Türkiye ile ortak güvenlik politikaları, araştırma makalesi, dergipark AUSBD, 2021; 4(8): s.113-128
3. Siret Hürsoy . Avrupa Güvenlik ve Savunma politikası kıskacında Türkiye-Avrupa Birliği ilişkileri, Güvenlik Stratejileri Dergisi,2005 s.34-41
4. Sinem Adar, Hürcan Aslı Aksoy. Alignment of Necessity Turkey's Role in the Future European Security Architecture https://www.swp-berlin.org/en /publi cati on/ali gnment-of-necessity
5. Turkey's Ambivalence Is a Threat to European Security. https://carnegieendowment.org/posts/2025/04/turkeys-ambivalence-is-a-threat-to-european-security?lang=en [10.10.2025].
6. John paul Rathbone. Military briefing: How Turkey became vital to European Security, Financial Times https://www.ft.com/content/1de61da8-2481-4371-a0cd-b24ffba8b210 [10.10.2025].

ЭЛЬГЮН КАХРАМАНОВ
Бакинский государственный университет,
Центр арменоведения и подготовки кадров,
Доктор философии по историческим наукам

ГЮНАЙ АШУРОВА
Научный сотрудник Научно-исследовательской лаборатории
«Азербайджанцы мира: историческая демография»
Бакинского государственного университета, диссертант

НОВАЯ РОЛЬ ТУРЦИИ В БЕЗОПАСНОСТИ ЕВРОПЫ

Турция, игравшая важную роль в обеспечении европейской безопасности в годы холодной войны, долгое время сохраняла свои позиции на южном фланге НАТО. Турция считалась важным стратегическим государством для НАТО благодаря своему идеологическому видению и военной мощи в борьбе с угрозой социализма. Соединенные Штаты, сыгравшие роль в организации европейской безопасности после Второй мировой войны, создали условия для экономического развития европейских стран. Соединенные Штаты фактически долгое время играли роль «зонтика безопасности» для Европы. Это привело к тому, что европейские страны создали государства всеобщего благосостояния, минимизировав военные расходы и увеличив социальные. Европа, восстановленная при финансовой помощи США, сократила расходы на оборону, развивая свою инфраструктуру, и стремилась к построению социально-экономического общества. Событие, которое вновь заставило европейские страны задуматься о своей обороне, было связано с возрождением агрессивных и империалистических устремлений России.

Ключевые слова: Евросоюз, российско-украинская война, проблемы безопасности, НАТО, Турецкая Республика.

ELGUN GAHRAMANOV
Baku State University, Center for Armenian Studies and Training,
PhD in History

GUNAY ASHUROVA
Researcher at the Scientific Research Laboratory
"World Azerbaijanis: Historical Demography" of Baku State University,
dissertation candidate

TURKEY'S NEW ROLE IN EUROPE'S SECURITY

Turkey, which played an important role in European security during the Cold War, maintained its position on the southern wing of NATO for a long time. Turkey was considered an important strategic state for NATO with both its ideological vision and military power against the threat of socialism. The United States, which played a role in organizing European security after World War II, created conditions for the economic development of European countries. The United States actually played the role of a “security umbrella” for Europe for a long time. This led European countries to establish welfare states by minimizing their military spending and increasing their social spending. Europe, which was rebuilt with US financial assistance, reduced defense spending in building its infrastructure and aimed to build a socio-economic society. The event that accelerated the European countries' thinking about their defense again was related to the rekindling of Russia's aggressive and imperialist desires.

Keywords: European Union, Russia-Ukraine war, security issues, NATO, Republic of Turkey.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, t.e.d. Sani Hacıyev.